# Tarixin yadigari— sənət nümunələri

Azərbaycanda bir çox sənət növləri mükəmməl inkişaf etmişdir. Daşyonma, nəccarlıq, dulusçuluq, dəmirçilik, misgərlik və s. bu kimi sənət əsərlərinin tarixi lap qədimlərə gedib çıxır. Bu sənət növləri içərisində misgərliyin qədim tarixi nümunələrinə Azərbaycanımızın hər bir bölgəsində rast gəlmək olar. Azərbaycanda aşkar olunan misgərlik nümunələrinin tarixi e.ə. V-IV minilliklərə aiddir. Arxeoloji qazıntılar zamanı aşkar olunun nümunələr bunu bir daha təsdiq etmişdir. E.ə II miniliyin yarısına aid olan Əliköməktəpədən tapılan mis qazan bu sənətin tarixinin qədimliyindən xəbər verir. Misdən müxtəlif növ qablar, məişət əşyalrı digər nümunələr və s. hər biri zamanın, tarixin canlı şahidləri, halal əməyin bariz nümunələridir.

Misgərlik sənəti Azərbaycanda IX əsrlərdən başlayaraq daha da genişlənməyə başlamışdır. Bu sənət nümunələrinə bu günlərə qədər hər bir evdə rast gəlmək olar. Tarixi qədim olan bu sənət növü son dövrlər tarixə qovuşmaq üzrədir. XX əsrin sonlarına qədər bu nümunələr hər zaman, hər yerdə göz oxşayırdı. Son zamanlar hər bir sahədə gedən inkişaflar bu sənətə hətta onun növbənöv nümunələrinə təsirini göstərmişdir. Lakin əvvələr bu sənətə maraq və ehtiyac böyük olmuşdur.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində bu sənət nümunələri tarixin yadigarları kimi qorunub saxlanılır. Böyük həcmli qazanlar, sərpuşlar, tavalar, tayqulplar, badyalar, nimçələr, sərniclər, aftafa-ləyənlər və s. bu kimi nümunələr ekspozisiyanı bəzəməkdədir. Böyük əmək, əziyyət bahasına ərsəyə gələn sənət nümunələri həm səbir, həm də gözəl zövq tələb edir. Diqqətlə bu nümunələrə baxıram. Üzərindəki ornamentlər necə gözəl və dəqiq işlənmişdir. Meandr, sadə islimli, vağvaği, buta və s. ornamentlər bu nümunələrin gözəlliyinə daha bir zənginlik qatır. Bu cür qablarda hazırlanan xörəklərin xüsusu dadı, təamı vardır. Ona görə də bu nümunələri hazırlayan misgərlər belə ornametlərdən istifadə etmişlər ki, hər tərəfli olaraq bu gözəlliklər vəhdət təşkil etsin. Bütün bunlar ağız dadının xoş, gözlərin seyri üçün gözəl, füsunkar olması nəzərdə tutulurdu. Həmin dövrlədə bu cür nümunələr zamanın tələbi idi. İndi isə belə nümunələr bu gün tarixin əvəzedilməz nüminələri, muzeylərin qiymətli sərvətidir. Hər bir qabın üzərində növbənöv ornamentlərə gəlincə onu demək istərdim ki, bunlar həm də arzu və istəklərin, güclü fantaziyaların məhsuludur. Burada meandr formalı ornamentlər inkişafı, irəliləyişi, dairəvi şəkildəkilər günəşi, kvadrat və romb formalı ornamentlər isə torpağın rəmzi kimi Azərbaycan incəsənətinin qədimliyini, zənginliyini və təkrarsızlığını ifadə edir.

Son zamanlar misgərlik sənətinin inciləri, sənətkarların minbir əziyyətlə ərsəyə gətirdikləri nümunələr metal parçasına çevrilərək məhv edilir. Tariximizin canlı şahidləri, tariximizin bir hissəsi itib-batır, sənətkarların əməyi hədər olur. Bu cür sənət yadigarları məhv olmaqla tarixdən necə-necə səhifələr silinir. Yaxşı olardı ki, belə nümunələr məhv olmasın, qorunsun. Çünki, bunlar xalqımızın tarixən mənsub olduğu qədim misgərlik sənətinin nümunələri, yadigarlarıdır. Hər bir Qəbələ sakini belə əşyaları Qəbələ Tarix-Diyarşünaslıq muzeyinə verməklə tariximizi bir vətəndaş kimi qorumuş olar. Ekspozisiysını daim yeniləyən, genişləndirən Qəbələ muzeyini ziyarətə gələn hər bir şəxs vaxtilə muzeyə hədiyyə etdikləri əşyaları görəndə fərəh-qürur hissi keçirirlər. Bir Azərbaycanlı kimi, bir vətən övladı kimi tariximiz üçün, gələcək nəsillər üçün yadigar nümunələr ərməğan etməklə vəzifə borclarını yerinə yetirirlər. Gəlin hamılıqla bu xeyirxah aksiyaya qoşulaq, belə gözəl sənət nümunələrini, tarixin yadigarlarını qoruyaq. Çünki, gələcək nəsillər üçün bunlar əvəzedilməzdir.

**İlhamə Seyidova,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyinin kiçik elmi işçisi.**

# Əlimirzəyev Xalid Əlimirzə oğlu



Azərbaycan elmi ictimaiyyətinə ağır itki üz vermişdir. Filologiya elmləri doktoru, professor Əlimirzəyev Xalid Əlimirzə oğlu ömrünün 84-cü ilində vəfat etmişdir.

Əlimirzəyev Xalid Əlimirzə oğlu 1932-ci ildə Qəbələ rayonunun Qəmərvan kəndində anadan olmuşdur. O, hələ orta məktəb illərində məntiqi düşüncə tərzi, möhkəm yaddaşı, nümunəvi tərbiyəsi ilə başqalarından seçilirdi. Orta təhsil aldıqdan sonra Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş və həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Bir müddət rayon məktəblərində müəllim işləmişdir.

X. Əlimirzəyevin filologiya elminə olan həvəsi onu sevdiyi ixtisasının sirlərinə daha dərindən yiyələnməyə sövq etmişdir. Bu arzu onu aspiranturaya gətirib çıxarır. Aspiranturanı bitirdikdn sonra 1964-cü ildə namizədlik, 1972-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib alimlik dərəcələri alır. Pedaqoji fəaliyyətini Bakı Dövlət Universitetində davam etdirməklə 1974-cü ildən universitetin ədəbiyyat tarixi kafedrasının professoru olmuşdur. Daha sonralar—1992—1993-cü illərdə Azərbaycan Respublikası təhsil nazirinin birinci müavini və bir sıra başqa vəzifələrdə işləyir.

Görkəmli alim 15 monoqrafiyanın, 500-dən çox elmi-publistik məqalələrin müəllifidir. Çoxlu yetirmələri bu gün respblikanın orta və ali məktəblərində pedaqoji fəaliyyət göstərir, müxtəlif vəzifələrdə çalışırlar.

X. Əlimirzəyev bədii yaradıcılıqla da qələmini sınamışdır. Onun «Məhəbbət yaşadır», «Daşa dönmüşlər», «Səadət» pyesləri Azərbaycan Milli Dram Teatrında və Bələdiyyə teatrında tamaşaya qoyulmuşdur. Akademik Dram Teatrında bədii şuranın üzvü olmuşdur.

X. Əlimirzəyev öz ziyalılığı, savadı və səmimiliyi ilə çoxminlik universitet tələbələrinin, müəllimlərinin, onu tanıyanların hamısının məhəbbət və ehtiramını qazanmışdır.

X. Əlimirzəyev 30 yanvar 2016-cı ildə əbədiyyətə qovuşmuş, vəsiyyətinə uyğun olaraq Qəbələ şəhərindəki qəbiristanlıqda torpağa tapşırılmışdır.

Qəbələlilərin fəxri olan görkəmli alimin əziz xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaqdır.

***Qəbələ ziyalılarının, tanıyanların və yaxınlarının bir qrupu.***

# “Əxlaqın saflaşdırılmasına müdrik kəlamların təsiri”

Hansı cəmiyyət, hansı dövr olur olsun, elm və texnikanın inkişafı, sivilizasiyanın genişlənməsi, çoxşaxəli internet şəbəkələri, kosmik nailiyyətlər bu və ya digər şəkildə hər bir cəmiyyət üzvünün əxlaqına, davranışına da müxtəlif cür təsir edir.

Açığını demək lazımdır ki, internet əsri bir çox gənclərin davranış qaydalarında aşınmalara səbəb olmuş, onlarda bir laqeydlik, diqqətsizlik yaranmışdır.

Şübhəsiz ki, ölkəmizin qabaqcıl, tanınmış pedaqoq və alimlərini bu vacib məsələ haqlı olaraq narahat edir. Onlar əsrlər boyu formalaşmış əxlaqi dəyərlərin insanın, xüsusən gənclərin dünyagörüşünün inkişafında, formalaşmasında rolunu həmişə yüksək qiymətləndirmişlər.

Pedaqoqika üzrə fəlsəfə doktoru, dosent, həmyerlimiz Ayaz Qasımovun pedaqoq alimlər arasında özünəməxsus yeri vardır. İşgüzar alim-pedaqoqun bu yaxınlarda çapdan çıxmış “Əxlaqın saflaşdırılmasına müdrik kəlamların təsiri” kitabı yuxarıda bəhs etdiyimiz vacib məsələlərin həllinə həsr edilmiş çox lazımlı vəsaitdir.

“Əslində bütün oxucuların, müəllim və tələbələrin yararlana biləcəyi bu kitabı pedaqoji elmin, xüsusilə etnopedaqoqikanın və pedaqoqikanın tərbiyəşünaslıq bölməsinin ensiklopedik mənbələrindən biri hesab etmək olar” (professor Fərahim Sadıqov).

Uzun əsrlərin sınağından çıxmış müdrik kəlamlardan, atalar sözlərindən bəhs edən bu kitabı tərbiyə kitabı da adlandırmaq olar.

Təhsildə test sistemindən sonra yalnız “lazım olan” biliklərə yiyələnmək bəzi məzunları, sonrakı kadrları sanki bir robot kimi yetişdirir.

Yetişən nəslin bu mənada hansı sahədə oxumasından, işləməsindən asılı olmayaraq əxlaqın saflaşdırılmasına xidmət edən dəyərlərə yiyələnməsində bu kitabın rolu ola bilər.

A.Qasımovun kitabda müraciət etdiyi görkəmli simalar içərisində bir çox dünya şöhrətli alimlər, filosoflar, şair və yazıçılar, dahi şəxsiyyətlər vardır.

Aristotel, Sokrat, Kant, Nizami, Tusi, Bakıxanov, Q. Təbrizi, S. Şirazi, Hüqo, Belinski, Makarenko və onlarla, yüzlərlə şəxsiyyətlərin müdrik fikirləri ayrı-ayrı mövzular üzrə kitabda

**Yeni kitab**

komplektləşdirilmişdir.

Kitabın ən yaxşı cəhətlərindən biri də budur ki, müəllif əxlaq tərbiyəsinin bir sıra komponentlərinin şərhini verərək onların elmi-pedaqoji mahiyyətini açır və uzun illərin təcrübəsindən çıxmış metodiki göstərişlərini verir.

Məlum olduğu kimi Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev demək olar ki, bütün çıxışlarında islam dəyərlərinə, tolerantlığa həmişə hörmət və diqqətlə yanaşmağı tövsiyə edir.

Elə 2016-cı ili Azərbaycan respublikasında “Multikulturalizm ili” elan etməsi də bu kitabda qeyd edilən məsələlərin həlli ilə birbaşa bağlıdır.

Heç şübhəsiz ki, təkcə tələbə və şagirdlər deyil, müəllim və geniş oxucu kütləsinin yaxşı yararlanacağı bu metodiki vəsaiti el arasında “tərbiyə elmi” kimi də tanınan xalq pedaqokikasının çox dəyərli, yeni nümunələrindən biri hesab etmək olar.

Biz həmişə hər yerdə pərakəndə halda müxtəlif müdrik, elmi, pedaqoji fikirlərə rast gəlmişik. Ancaq bunların ayrı-ayrı bölmələr, mövzular üzrə komplektləşdirilməsini, şərhini, izahını görməmişik.

Məhz bu boşluğu “Əxlaqın saflaşdırılmasına müdrik kəlamların təsiri” əsəri doldurur. Belə ki, kitabda ayrı-ayrı başlıqlar üzrə düzlük, doğruçuluq, həqiqət, yalan, xəyanət, qənaət, dostluq, düşmənçilik, xeyirxahlıq, bədxahlıq, pislik, ağıl, elm, ailə, eşq, qəm, halallıq, sadəlik, islami dəyərlərə hörmət, gənclik və s. keyfiyyətlərin əxlaqın saflaşdırılmasına müsbət və ya mənfi təsiri çox ustalıqla, səbrlə işlənib oxuculara təqdim edilmişdir.

Əsrlərin sınağından süzülüb gələn müdrik fikirləri şərh edən pedaqoq-alim A. Qasımov kitabda bu qənaətə gəlir ki, hər şeydə irəliyə baxmaq lazımdır, tərbiyədə isə geriyə baxmaq yaxşı nümunələri götürüb tətbiq etmək bir çox hallarda lazımdır.

Elmi-pedaqoji əsərləri Azərbaycandan başqa Rusiyada, Ukraynada, Gürcüstanda rus və Azərbaycan dillərində çap olunan bir çox kitab, tədris proqramları, elmi məqalələrin müəllifi, hazırda Azərbaycan Dillər Universitetinin pedaqoqika kafedrasının dosenti, “Milli Pedaqoqika Məktəbi” jurnalının baş redaktorunun birinci müavini olan fəlsəfə doktoru, həmyerlimiz Ayaz Qasımovu bu gözəl kitabın işıq üzü görməsi münasibətilə təbrik edir, ona uzun ömür, daha böyük yaradıcılıq uğurları arzulayırıq.

**Hüseynağa QASIMOV,**
**Qəbələ rayonu, Vəndam qəsəbə 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi.**